| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 28.01.2019 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 492 |
| **ADI** | Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 760 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli və "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları"nın və "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrindən istifadə haqqının məbləği"nin təsdiq edilməsi haqqında" 2018-ci il 29 mart tarixli 1901 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 29-01-2019, Nəşr Nömrəsi: 22), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2019, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 82) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 29.01.2019 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQİ TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 020.020.020 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201901280492 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 30.01.2019 |

**Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 760 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli və "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları"nın və "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrindən istifadə haqqının məbləği"nin təsdiq edilməsi haqqında" 2018-ci il 29 mart tarixli 1901 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 288 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 760 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 2 (II kitab), maddə 224) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddən "və strukturunun" sözləri çıxarılsın;

1.2. 3-cü hissə ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, 2, maddə 200, 6, maddə 1105, 9, maddə 1638, 11, maddə 1984; 2018, 2, maddə 199, 3, maddələr 415, 419, 429, 5, maddələr 915, 927, 7 (I kitab), maddə 1481, 8, maddə 1698, 11, maddələr 2242, 2289; Azərbaycan Respublikası Prezidentinin 18 dekabr tarixli 409 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 14.1-ci və 14.2-ci bəndlərində "Direktorlar Şurasının sədri, sədrin müavini, Baş icraçı direktor və onun müavinləri, Direktorlar Şurasının üzvləri, İdarə Heyətinin üzvləri (departament direktorları)" sözləri "İdarə Heyətinin sədri, sədrin müavinləri və digər üzvləri, departament direktorları" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, 5, maddə 765, 9, maddə 1650, 10, maddə 1789, 12 (I kitab), maddələr 2314, 2321; 2018, 1, maddə 54, 2, maddələr 200, 219, 3, maddələr 416, 430, 448, 5, maddələr 916, 919, 6, maddə 1243, 9, maddələr 1828, 1840, 11, maddələr 2274, 2289; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 383 nömrəli, 21 dekabr tarixli 430 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 33.1-ci bəndində "Direktorlar Şurasının sədri, onun müavini, Direktorlar Şurasının üzvləri, baş icraçı direktor, onun müavinləri, İdarə Heyətinin üzvləri (departament direktorları)" sözləri "İdarə Heyətinin sədri, sədrin müavinləri və digər üzvləri, departament direktorları" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 1901 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 3, maddə 451) ilə təsdiq edilmiş "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları"nın 11.2-ci bəndində "Baş icraçı direktorunun" sözləri "İdarə Heyəti sədrinin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 yanvar 2019-cu il
492